# QƏHRƏMAN TARİX GÜZGÜSÜNDƏ: POETİK VƏ PUBLİSİSTİK SƏCİYYƏ



*Elçin MEHRSSLİYEV,*
*filologiya elmləri doktoru,*
*yazıçı.*

Zaman və şəxsiyyət problemi milli ədəbiyyatımızı həmişə düşündürüb. Vətənpərvər duyğulu, geniş təfəkkürlü sənətkarlarımız bu mövzu vasitəsilə sosial-ictimai mühitdəki eybəcərlik və haqsızlıqları tənqid atəşinə tutub, ədalət uğrunda mübarizədə fədakarlıq göstərənlərin parlaq obrazını yaradıb, xoşbəxt cəmiyyət quruculuğu ilə bağlı fikir və ideyalarını bölüşüb. Bu baxımdan, istedadlı şair-publisist Əli Rza Xələflinin görkəmli ictimai-siyasi xadim, tibb alimi, akademik Yaqub Məmmədovun 80 illik yubileyinə həsr etdiyi *"Dönməzlik yolu"* adlı kitabı müasir ədəbiyyatımızın uğurlu nümunələrindən biri kimi dəyərləndirilə bilər.

Kitabda ideya və məzmunca bir-birini tamamlayan poemalar və oçerklər toplanmışdır ki, onların hər biri bədii-estetik səciyyəsi ilə yanaşı, mənəvi-əxlaqi və fəlsəfi-idraki mahiyyət kəsb etmək keyfiyyəti ilə də maraq doğurur.

Əli Rza Xələfli tarixi hadisələrin əsas obrazın, qəhrəmanın şüurunda necə əks-səda verməsini, insan münasibətlərində necə təzahür etməsini özünəməxsus bir şəkildə - Yaqub Məmmədovun mənsub olduğu bir nəslin Azərbaycan Xalq Cümhuriyyəti dövründən, hətta ondan da əvvəlki dövrlərdən bu günə qədərki tarixi taleyinə güzgü tutmaqla, hələ də dillərdə dolaşan heyrətamiz əhvalatlara, unudulmaz xatirələrə müraciət etməklə əks etdirir. Epik təsvirlər, lirik düşüncələr, publisistik mühakimələr belə bir qənaətimizi daha da qətiləşdirir ki, tariximizin hansı səhifəsinə diqqət yetirsək, orada xalqımız üçün çox mühüm hadisələrin baş verdiyini görərik. O da məlumdur ki, mükəmməl bədii əsərlər tariximizi öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir və bəzən insanlar tarixi ədəbiyyat vasitəsilə daha yaxşı öyrənir, daha aydın qavrayırlar.

Əlbəttə, yazıçı tarixi hadisələrə münasibətdə obyektivliyi qoruya bilməklə, yaratdığı əsərin yüksək əyarını təmin edər, təhlildə düşüncə məhsulu həmin hadisələri bədii yaddaşa çevirər.

*«Dönməzlik yolu»* kitabı müəllifin eyniadlı əsərini özündə ehtiva edir. Kitabda verilmiş *«Dönməzlik yolu»* poeması iki hissədən ibarətdir. Birinci hissə *«Dağlarda duman qaldı»* adlanır. Burada Azərbaycanın Sovetlər Birliyindən qopub ayrılmasına qədərki dövrün hadisələri verilib. Epik-lirik poemalar silsiləsi kimi qələmə alınmış bu hissədə ayrı-ayrılıqda hər bir əsər həm də müstəqil poema təsiri bağışlayır, hər birinin öz əhatə dairəsi və qəhrəmanları var. Bu da, qeyd etdiyimiz kimi, müəllifin bədii məqsədinə uyğun olaraq qəhrəmanın timsalında bir nəslin tarixi taleyi ilə maraqlanmasından irəli gəlir. Şair Ümumazərbaycan tarixi üçün maraqlı olan hadisələri bədii cəhətdən işləyir, *"həyatın rənglərini"*, yaşanan hisshəyəcanları, insan talelərini yadda qalacaq səviyyədə təqdim edə bilir.

Biz burada Daşnaksütyun törənlərinin törətdiyi fitnə-fəsadları, Cümhuriyyət dövrü hadisələrini, bolşevik işğalını, qəddar repressiya tüğyanlarını, II Cahan savaşının dəhşətli üzünü... görür, həmin hadisələrin iştirakçısı olan köklü bir nəslin - Gədəbəyin Alnabat elinin mübarizələrdə şəxsiyyət kimi formalaşmış Ocaqqulu kişi, Məmməd kişi, Salman Dönməz, Səməd ağa, Gülsüm nənə, Cavad kişi, Qaçaq Məcid, Məlik dayı və s. kimi nümayəndələrinin bədii-sənədli obrazları ilə tanış oluruq:

*Hər oğul bir budaqdı. - əzəl kökdən danışım,*
*Tarixdən söhbət açım, bir soy kökdən danışım*

- deyən şair seçdiyi qəhrəmanı yetirən mühitin - soy-kökün mənəvi-əxlaqi zənginliyinə, xeyir-şər mübarizələrində haqdan dönməzliyinə sərrast misralarla işarələr edir:

*Yeddi oğul atası Ocaqqulu kişidən,*
*Olmadı ömrü boyu bir çürük söz eşidən.*

Yaxud:

*Hər insanın əməli öz adına bağlıdır,*
*Başqa cür fərq eləməz aranlıdır, dağlıdır.*

Əgər Salman Məmmədoğlunun, Kərəm Məmmədoğlunun başına gələn hadisələr mövcud siyasi rejimin insana qeyri-humanist münasibəti haqqında təsəvvür yaradırsa, Salman Dönməzin erməni daşnaklarına qarşı döyüşü, Nuru Paşa ilə qardaşlığı, kişi qeyrətli Nabat ananın *"enkevede"* rəisinə: *"Oğlumu istəmirəm, doğrunu istəyirəm; Bu yalanı kim qurub, qurğunu istəyirəm!"* - hayqırtısı işğalçı rejimə qarşı qəzəb və nifrətin miqyası barədə təsəvvür yaradır. Şair əsarətə qarşı etirazı, azadlıq yanğısını obrazlı şəkildə, dolğun misralarla ifadə edir:

*Döyülürdü qapılar qaranlıq gecələrdə,*
*Gülüşlər yox olmuşdu, meydan qalmışdı dərdə.*

*Güdülür, izlənirdi tüstüsü qalın çıxan,*
*Hörmətli adam idi, donos yazan, ev yıxan.*

*Soyuq Şimal küləyi ürəklərdən əsirdi,*
*Gələcək arzuları, diləkləri kəsirdi.*

Və bu dolaşıq zamanda qəhrəmanları, əlbəttə ki, bəşəri suallar narahat edir:

*Niyə sözü bir kəsin düz gəlmir qeyrisinə,*
*İxtiyarlar verilir zamanın əyrisinə.*

*Niyə bir olmur axı, and yeri, aman yeri,*
*Həqiqət parçalanır, dağılır güman yeri.*

Qeyd etməliyik ki, əsər *«Söz doğrunun, düzündü»* adlı müəllif düşüncələrilə başlasa da, sözü öndə görürük, müəllif sanki həqiqətin timsalında sözün özünü görür:

*Sözə gələn yollarda keçdim dağı, dərəni,*
*İnadıma güvənib aşdım neçə bərəni.*

*Söz güldü gözlərimə - dedi: gəlib çıxmısan,*
*Bulud kimi dolmusan, şimşək olub çaxmısan.*

*Mən sənin canındayam öz qanından süz görüm,*
*Hər kəlmə söz incidi, misralara düz görüm.*

Göründüyü kimi, müəllifin dərin mənalar ifadə edən sözə poetik müraciəti elə ilk misralardan oxucuya da təsirsiz ötüşmür, onda maraq oyadır, ruhunu səfərbər edir və bir şairin dilindən sanki söz haqqında şirin bir nəğmə dinləyirik.

Birinci hissədəki, ikinci əsərin adı *«Könlümə yol aradım»* adlanır. Elə təkcə başlıqda ifadə olunan mənanın şair xəyalının keçdiyi yerləri yada salması bəs edir ki, əsərin əhatə etdiyi tarixi coğrafiyanı, tarixi-mənəvi mühiti tam təsəvvür edə biləsən.

*Ruhum canım əvəzi uçuna Diri dağa,*
*Baxa Araz üstündə Xudafərin cızdağa;*
*Hardan alsın dözümü tablasın diri dağa,*
*Dərdimin Arazından könlümə yol aradım.*

Bu hissədə müəllif yaşadığı dövrün əhvalına nəzər yetirir. Qarabağın işğalından sonra yaşadığı həsrətin ağrılarını dilə gətirir və bu ağrılar içində qavradığı həyat həqiqətlərini, həyatın ibrətamiz dərslərini bölüşür. Məlum olur ki, o, papağını günə havayı yandırmayıb, bu kimi düşüncə və qənaətlərini ictimai-ədəbi mühitdə dəyər almış bir çox əsərlərində, maraqlı kitablarında da əks etdirib.

Nəhayət, müəllif yeni əsərində bəhs edəcəyi Məmmədovlar nəslinin tarixi taleyini işıqlandırmaq üçün əsl məqama gəlib çatır. *«Hər ocağın öz işığı»* əsəri ilə Azərbaycan tarixinin rus işğalına məruz qaldığı zamandakı səhnəni göz önünə gətirir. Patrialxal mühitin yaratdığı bütöv xarakterləri tərənnüm edir. Sağlam bir nəslin tarixi ocağının başlanğıcına işıq salan əsər mənəvi mühitin qızıl dövrünə diqqəti yönəldir. Sonralar tarix səhnəsində görünən bir çoxlarını biz başlanğıcdakı ocağın qorlanan qığılcımları kimi görürük. *«Karvan gəlir, yola bax»*, *«Dönməzlik yolu»*, *«Ölüm maşınının ağzında»*, *«Bir atanın düz yolu»*, *«Bir acı xatirə»* kimi əsərlər xüsusi sənətkarlıqla işlənmiş, obrazlar sözün həqiqi mənasında canlı həyatın özü kimi müəllif ruhundan nəfəs almışdır.

Kitabın ikinci hissəsi *«Ucalıq eşqi»* adlanır. Bu hissə, bəzi məqamlarda epik notlardan istifadə olunsa da, əsasən lirik ovqatda qələmə alınıb. Burada biz artıq Yaqub Cavad oğlu Məmmədovu ön planda görürük. Və həm də onun əsas obraz kimi seçilməsinin səbəbləri aydınlaşır. Bizim müasirlərimiz, bir az da dəqiqləşdirsək, həmyaşıdlarımız XX əsrin son onilliyindəki hadisələrin şahidi olub. Bu hadisələr ən müxtəlif təbiətli siyasi xadimləri ortaya çıxarıb. Biz ziddiyyətli hadisələrin fonunda onların bir çoxunun mənəvi iflasını da görmüşük. Əsərdə diqqət mərkəzində saxlanan Yaqub Cavadoğlu obrazı həmin dövrün sınaqlarından üzüağ çıxmağı bacarmış qəhrəmanlarındandır. O, görkəmli tibb alimi, təhsil təşkilatçısı, sonralar siyasi arenada daha aydın görünən bir simadır. Onun Azərbaycan siyasətində görünən qətiyyəti səmimiyyəti ilə daha çox diqqəti cəlb edir. Müəllifin yazdığı kimi, yaddaşa yazılmaq nə bir toplumun, nə də şəxsin özünün iradəsi ilə mümkün olan fenomen deyil. Bu fenomenin gücü orasındadır ki, xalq onun kimliyini qavrayır və yaddaşında zaman-zaman qoruyur. Bir sözlə, yaxın keçmişin mürəkkəb hadisələrinə aydınlıq gətirmək üçün məhz hadisələrin iştirakçısı və şahidi olmuş belə bir insanı danışdırmaq, fikir və duyğularını bədii şəkildə oxuculara çatdırmaq şairin, yazıçının bədii məqsədinə uyğundur. Müəllif qəhrəmanın həyatının müxtəlif məqamları - ilk gənclik, alim kimi formalaşma dövrləri, eləcə də siyasi mühitin ön səhnəsindəki zamanı yüksək poetik hisslərlə qələmə alır. Biz ikinci hissədə də müəllifi özünəgüvənctli, ilhamının onu darda qoymayacağına inamlı görürük. Ancaq şair bu inamına baxmayaraq, Tanrıya müraciətdə ona güvəndiyini bildirməkdən çəkinmir.

*Ey Tanrım, sən məni yaradan gündən,*
*Tapşırdın düz sözə, həqiqətlərə.*
*Yoluma göz qoydun yaxından, gendən*
*Güvəncim sən oldun, keçdim dağ, dərə.*

*Sözümü qəlbimdə göyərdən kimi,*
*Yapışdım sözümün öz diləyindən.*
*Sovruldum xırmanda halal dən kimi,*
*Keçdim bu dünyanın köz ələyindən.*

Burada əsərin birinci hissəsindən fərqli olaraq epik əhval lirik əhvalla əvəzlənir. Və bu əhval əsərin ikinci hissəsi boyunca («Ucalıq eşqi»ndə) davam edir. Tanrıya müraciətin sonunu müəllif belə bir bayatı ilə bitirir:

*Dərdi bölən yaxşıdı,*
*Baxsan bələn yaxşıdı.*
*Mən bildiyim yaxşıdan,*
*Tanrı bilən yaxşıdı.*

Müəllif düşüncələrinin yekunu kimi səslənən bu dördlükdəki mətləbin alt qatındakı məna təkzib olunmayan, ancaq bəlkə də, bütövlükdə cəmiyyət üçün açılmayan həqiqətlərə işarə edir.

Müəllifin bədii qənaətinə görə, siyasətdə mənəvi ölçülərə, ləyaqətə, yüksək dəyərlərə tapınmayan siyasətçilər üçün həqiqət çoxtərəfli məzmun daşıyır. Ancaq *«Ucalıq eşqi»* poemasının tərənnüm etdiyi obraz siyasi mühitin sözün həqiqi mənasında əxlaqi dəyərlərə tapınan simalarından biridir. Onun üçün siyasət yalnız həqiqətin görünən tərəfidir. Hətta görünməyən tərəfi olsa belə, yenə dəyərlərdən kənara çıxmır. *"Yaqub Məmmədov XX əsrin siyasi kataklizmlərinin siyasi arenaya çıxardığı ən saf, ən təmiz mənəviyyat adamı idi"*. Bu mənada, Yaqub Cavadoğlu Azərbaycan xalqının sevdiyi və hörmət elədiyi canlı bir obrazdır. *"Böyük ədəbiyyatın, böyük sənətin qaynağı ola biləcək bir obraz... O, haqqı və ədaləti sevir. O, bu xalqı sevir"*. Y.Məmmədovun *«Ucalıq eşqi»* poemasının əsas obrazı kimi xarakterizəsi həyati həqiqətlərə tapındığı üçün bədii həqiqətdə də özünü doğruldur.

**(Davamı 9-cu səhifədə)**

*(Əvvəli 8-ci səhifədə)*

Məlumdur ki, Yaqub Cavadoğlunun siyasi səhnədə parlaması çox ağır və mürəkkəb bir dövrə təsadüf etdi. Bu, elə bir təlatümlü zaman idi ki, dövlət xalqın sosial qayğılarından daha çox suverenliyinin qorunması haqqında düşünməyə məcbur idi. Hiyləgər siyasətçilər fitnə-fəsad qurub, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanı yenə beşiyindəcə boğmaq istəyirdilər, ermənilər yenə aranı qarışıq görüb üstümüzə ayaq açmışdı. Qarabağ kənd-kənd, şəhər-şəhər işğal olunurdu. Bir tərəfdən də bulanıq suda balıq tutmaq istəyənlər, hakimiyyət uğrunda didişmələr, mənəm-mənəmlik, özbaşnalıq... və bütün bunlardan qəzəblənən, aşıb-daşan insan seli... Belə bir vaxtda xalqı necə idarə edəsən, necə yol göstərəsən, necə səfərbər edəsən? Şair demiş:

*Yalançı kommunistlər gizlənir daldalarda,*
*Qorxmazlar, dönməzlər də izlənir daldalarda.*

...*Yol açan, yol göstərən gəlməsə, fəlakətdi,*
*Xalqın özü doğrunu bilməsə fəlakətdi.*

Şairin bədii qənaətinə görə, bu təlatümlü məqamda Respublika Ali Sovetinin sədri seçilmiş və az sonra prezident səlahiyyətlərini də icra etməli olan Yaqub Cavadoğlu özünün iradəsi, mənəvi bütövlüyü ilə nəinki siyasi karyerasını, həm də gələcək nəsillərəcən şəxsiyyətini qoruya biləcək əqidə və inam sahibi kimi tanındı. Çünki o, siyasəti hiylə və kələk, riyakarlıq

# QƏHRƏMAN TARİX GÜZGÜSÜNDƏ: POETİK VƏ PUBLİSİSTİK SƏCİYYƏ

kimi qəbul etmədi, siyasi mühitə, bəlkə də, ilk dəfə olaraq siyasətdən kənar bir səmimiyyət - ziyalılıq səmimiyyəti, kişi sözübütövlüyü gətirdi. Milli birliyə nail olmağın yeganə çıxış yolu olduğunu yalnız sözlə deyil, həm də əməlləri ilə bəyan etdi. Siyasi mənsubiyyətindən, hansı qüvvəni təmsil etməsindən asılı olmayaraq xalqa xidmət etmək istəyənlərə yüksək vəzifə və səlahiyyətlər verdi. Xalq içərisindən çıxmış bir adam kimi, kadr təyinatında xalqın səsini eşidib, onun arzusunu nəzərə almağa çalışdı, qaynar nöqtələrə baş çəkib insanları özünümüdafiəyə ruhlandırdı. Onun bu və bu kimi addımları qarışıq dövrə rəğmən tam uğurla nəticələnməsə də, xalqın rəhbərə inamını artırır, milli birliyin möhkəmlənməsinə kömək edirdi. Y.Məmmədov bir xalqçı kimi qıtlıq, kasadlıq zamanında onun güzaranını da yaxşılaşdırmağa cəhdlər etdi. Əhalinin daha çox ehtiyacı olan təbəqələrinə güzəştlər edildi, bir sıra ərzaq məhsullarının qiyməti endirildi. Zənnimcə, müəllifin son misraları da onun ədəbi qəhrəmanına münasibətinin dəqiq yekunu kimi çox uğurludur: *«Millətini sevən, xalqını sevən bir oğul böyüdən ana bəxtəvər»*dir.

*«Dönməzlik yolu»* kitabı müəllifin bir əsr boyunca ziddiyyətlərlə, mübarizələrlə müşayiət olunan tariximizə münasibət baxımından çox dəyərlidir. Kitabın son hissəsində publisistik qeydlərin yer alması da müəyyən mənada müəllifin tarixi hadisələrin mahiyyətinə aydınlıq gətirmək istəyindən irəli gəlir. O, sanki poetik janrda yazdıqlarını publisistika dili ilə, bir qədər də açıqlamaqla bədii mətnin sətiraltı məqamlarını oxucu üçün şərh edir.

*"Dönməzlik yolu"*nda sənətkar ruhunun yüksək olduğunu və bunun ədəbi mövzuya müraciətdə Nizami, Sədi, Rumi və s. kimi ölməz klassiklərin yaradıcılıq ənənələrinin bir növ davamı ilə əlaqəli olduğunu şairin:

*"Xeyirə verilsə bağbanlıq tacı,*
*Saralar, quruyar şərin ağacı";*

*"Kəsilsə qabağı şərin, iblisin,*
*Yaxşılar əyilməz önündə pisin"*

- kimi ibrətamiz qənaətləri - bədii tədqiqatdan gəldiyi nəticələr də təsdiq edir.

**2022**